# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 17-18 (7577-7578) * 18 avqust 2020-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik


## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbriki



Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

İnsanlar arasında həmrəylik və qardaşlığın, humanizm və mərhəmətin rəmzi olan Qurban bayramı İslam dininin əsas bayramlarından biridir. Müsəlmanlar bu əlamətdar gündə Uca Yaradanın adına qurbanlarla Allaha yaxınlığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər.

Yüz illərdir ki, ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları Azərbaycanda qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında İslam dininin müstəsna rolu olmuşdur.

Hər il ölkəmizdə keçirilən dini bayramlar mütərəqqi milli-mənəvi dəyərlərin, sosial yardımlaşmanın və xeyirxahlıq duyğularının təntənəsinə çevrilir. Builki Qurban bayramı dünyanın qarşılaşdığı çətin sınaq dövrünə təsadüf etsə də, mömin vətəndaşlarımız Allah və din yolunda mənəvi borclarını layiqincə yerinə yetirir, öz nəcib əməlləri ilə cəmiyyətimizdə birlik və bərabərlik ovqatını daha da gücləndirirlər.

Əziz bacı və qardaşlarım!

Bu bayram günlərində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ölməz xatirəsini minnətdarlıqla yad edir, onların yaxınlarına və bütün xalqımıza səbir diləyirəm. İnanıram ki, xalqımızın firavanlığı və əmin-amanlığı, Vətənimizin çiçəklənməsi və tərəqqisi naminə etdiyiniz dua və diləklər gerçəkləşəcəkdir.

Bir daha hər birinizə səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə cansağlığı və xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

## Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində Tovuz rayonunun Ağdam, Dondar Quşçu, Vahidli, Əlibəyli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü kəndlərində mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə 1,0 (bir) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti Tovuz rayonunun Ağdam, Dondar Quşçu, Vahidli, Əlibəyli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü kəndlərində sosial infrastrukturun yaxşılaşdırılması məqsədilə zəruri hesab olunan işlərə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***6 avqust 2020-ci il***

***Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov tovuzluları Qurban bayramı münasibəti ilə təbrik edir, hamıya can sağlığı , firəvanlıq, ruzi-bərəkət arzulayır.***

1-1_tovuz - Œ Ł .qxd 21.08.2020 13:48 Page 2



# Azərbaycan cəmiyyətində Silahlı Qüvvələrimizə böyük inam var



Azərbaycan xalqının qəhrəmanlıq dastanı XXI əsrdə də davam edir. Azərbaycan torpaqlarını işğal edən Ermənistana qarşı bu gün də bütün cəbhə boyu mərd oğullarımız mənfur düşmənlə üz-üzə durub və qəhrəmancasına mübarizə aparırlar.

Ata-babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl yurdumuzu, onun üzərində atalarımızın qurduqları sivilizasiya və mədəniyyət xəzinələrini, dilimizi, mənəviyyatımızı qoruya bilmək, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etməyə hər an hazır olmalıyıq.

Xüsusilə Prezident, Ali Baş Komandan İlham Əliyevin ordumuzun güclənməsi və möhkəmlənməsi üçün göstərdiyi diqqət və qayğı öz uğurlu nəticələrini verir. Aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Silahlı Qüvvələrimizin hərbi-texniki təchizat səviyyəsi, nizam-intizamı və döyüş ruhu kifayət qədər yüksəkdir. Ən mühüm məqamlardan biri bundan ibarətdir ki, bu gün Azərbaycan cəmiyyətində Silahlı Qüvvələrimizə böyük inam var. Silahlı Qüvvələrimizin hər bir vətəndaşın qürur mənbəyidir. Bu, olduqca vacib amildir. Çünki ordu cəmiyyətdə daxili özünə inamı, dövlətə etimadı gücləndirən əsas faktorlardan biridir.

Bu gün Silahlı Qüvvələrimizin dünya reytinqində 50-ci pillədə qərarlaşır. Dağlıq Qarabağ münaqişəsinin həlli və ərazi bütövlüyümüzün bərpası Azərbaycan dövlətinin prioritet hədəfidir. Bu hədəfə nail olmaqda Silahlı Qüvvələrimizin əhəmiyyətli rolu oynayır. Bizim Silahlı Qüvvələrimizin müharibə vaxtı yaradılıb, Azərbaycan xalqı bununla fəxr edir. Silahlı Qüvvələrimizin döyüş ruhu yüksəkdir, ordumuz istənilən vaxt verilən əmri yerinə yetirməyə hazırdır.

Mübariz İbrahimov kimi, Fərid Əhmədov kimi qəhrəman oğullarımızın yolunun davamçısı və torpaqlarımızı işğaldan azad edənlərin sırasında olmaq gənclərimizin ən böyük arzusudur. Müharibədə döyüş də var, şəhidlik də var. Ancaq Vətənə görə döyüşmək, torpaqlarımız üçün döyüşmək, ölümdən qorxmadan döyüşmək lazımdır. General-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, Mübariz İbrahimov, Fərid Əhmədov kimi oğullarımız şəhidliyi özləri seçmişdi. Vətən üçün seçmişdi, xidmətdə olan əsgərlərə, çağırışçılara vəsiyyət kimi seçmişdi. Onların şəhidliyi əsgərlərə nümunədir.

Aprel döyüşləri tarixə ordumuzun gücünün, xalqla ordunun vəhdətini, vətənpərvərliyinin göstəricisi kimi düşdü. Aprel qələbəsi bir daha sübut etdi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Əks-hücum əməliyyatı aparan hissələrimiz mühüm mövqelərə sahib oldu. Lələtəpə kimi yüksəklik alındı. Nəticədə 1994-cü ildə düşməndən azad edilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olundu. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Hər kəs bu qalibiyyətin sevincini yaşayır.

Amma məhz aprel döyüşləri sayəsində azad olunan Lələtəpə və Talış yüksəklikləri bu rayonlarda yaşayan insanlarımızı təhlükədən qurtardı. Həm də işğaldan azad etdiyimiz yüksəkliklərdən Dağlıq Qarabağa nəzarət etmək imkanlarımız genişləndi.

Aprel döyüşləri ermənilərin məğlubedilməz ordu mifini sındırdı və bir daha göstərdi ki, Silahlı Qüvvələrimizin hərəkətə keçərsə, ermənilər darmadağın olacaqlar. Qısa bir zamanda, yəni 4 gün ərzində 300-dən çox erməni əsgəri məhv edildi, 500-dən çoxu ağır yaralandı, 30 tank, 15-dən çox artilleriya qurğusu və mühəndis istehkam qurğuları məhv edildi.

2018-ci ildə Şərur rayonunun işğal altında olan Günnüt kəndi və ətraf ərazilər uğurlu əməliyyat nəticəsində düşmən tapdağından azad edildi, 11 min hektar torpağa ordumuzun nəzarəti təmin olundu. Nəticədə, Əlahiddə Ümumqoşun Ordu düşmənin mühüm strateji yollarına nəzarəti ələ aldı, onun üzərində böyük üstünlük qazandı.

26 kilometr məsafəni əhatə edən əməliyyat nəticəsində 7 kilometrədək dərinlikdə əlverişli yüksəkliklər ələ keçirildi. Qızılqaya yüksəkliyinin ələ keçirilməsi İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verdi.

Ərazinin etibarlı müdafiəsi, bölmələrin manevr qabiliyyətinin yüksəldilməsi və təminat-təxliyə məqsədilə 50 kilometr yeni yol çəkildi, 60 kilometrdən artıq yararsız yollar bərpa edildi.

Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün ətrafdakı hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri quruldu. Müdafiə rayonunun qorunmasının təşkili məqsədilə ərazidə qısa müddətdə mühəndis istehkam tədbirləri görüldü, postlar arasında dayanıqlı rabitə əlaqəsi quruldu, yeni səngərlər qazıldı. Ön xətdəki mövqelərlə yanaşı, dayaq məntəqələrində də etibarlı müdafiə sistemi yaradıldı.

Eyni zamanda bu hərbi üstünlük ordumuzun şəxsi heyətinin döyüş ruhunu daha da artırdı. Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan üçrəngli, şəhid qanı ilə boyanmış müqəddəs bayrağımız ucaldıldı.

Əsgərlərimiz, gizirlərimiz, zabitlərimiz və generallarımız vətən uğrunda, birliyimiz və bərabərliyimiz uğrunda, Azərbaycan dövlətinin əbədi yaşaması uğrunda, gələcək nəsillər uğrunda gözlərini belə qırpmadan şəhidlik mərtəbəsinə yüksəlirlər. Bunun ən son nümunəsini 12 iyulda Azərbaycan - Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın atəşkəs müqaviləsini pozaraq hücuma keçməsi zamanı gördük.

Ermənistan bu təxribatın səbəbkarı kimi Azərbaycanı göstərməyə cəhd edib. Halbuki bu, heç bir məntiqə sığmır. Azərbaycanın Ermənistanla dövlət sərhədində hər hansı bir hərbi məqsədi yoxdur.

Ermənistan işğalçılıq siyasətini davam etdirir, ərazilərimizi zəbt etmək, mövqelərimizi ələ keçirmək istəyir. Amma Silahlı Qüvvələrimizin döyüş hazırlığı, mənəvi-psixoloji ruhu, bölmələrimizin yüksək hazırlığı sayəsində Ermənistan silahlı bölmələrinin hücumlarının qarşısı sərt şəkildə alındı. Düşmənə qarşı tətbiq olunan dəqiq və dağıdıcı gücə malik silahlar, həmçinin əsgər və zabitlərimizin qəhrəmanlığı onu itki verərək geri çəkilməyə məcbur etdi. Ordumuzun generalı döyüşlərdə əsgərlərimizin yanında idi, onlarla çiyin-çiyinə qarşı vuruşurdu.

Düşmən 100 nəfərə yaxın canlı qüvvəsini və texnikasını itirdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən xalqımız, ordumuz bu təlatümlü günlərdə onun yanında oldu, dəstəklədi. Ali Baş Komandan vətən uğrunda canlarını verən qəhrəmanlarımızı unutmur, onların, ailələrinin qayğısına qalır və onların qəhrəmanlığını yüksək qiymətləndirir.

İyulun 15-də Prezident İlham Əliyev döyüş zamanı müdafiənin ön xəttində olarkən qəhrəmancasına şəhid olmuş general-mayor Polad Həşimovun anası Səmayə xanım və polkovnik İlqar Mirzəyevin oğlu Elvin ilə telefonla danışıb. Dövlətimizin başçısı şəhidlərin ailə üzvlərinə dərin hüznlə başsağlığı verib, onlara Allahdan rəhmət və səbir diləyib.

Ali Baş Komandan qeyd edib ki, vətən uğrunda şəhid olan hərbi qulluqçularımızın qəhrəmanlığı heç vaxt unudulmayacaq, onların qisası alınıb və alınacaq, qanları yerdə qalmayacaq. Prezident İlham Əliyev general Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin ailəsinə ev verib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən Fondun nümayəndələri Sumqayıt şəhərində general-mayor Polad Həşimovun və Bakı şəhərində polkovnik İlqar Mirzəyevin ailələrini ziyarət ediblər. Fondun nümayəndələri Ağstafa, Tovuz, Qazax, İsmayıllı, Biləsuvar və Masallı rayonlarında olaraq şəhid ailələrinə baş çəkəcəklər. Tovuz rayonu istiqamətlərdə şəhid olan hərbçilərin ailə üzvlərinin bütün qayğılarının Mehriban Əliyevanın tapşırığına əsasən daim Fondun nəzarətində olacağı bildirilib.

Tovuz rayonunda atəşkəsin Ermənistan tərəfindən pozulması zamanı Silahlı Qüvvələrimizin bir daha öz üstünlüyünü təsdiq etdi. Bu əməliyyatın Silahlı Qüvvələrimizin şanlı tarixində öz yeri olacaq.

Artıq dövlətlər 25-30 il bundan əvvəl olduğu kimi Ermənistanın və erməni diaspor təşkilatlarının yaydıqları informasiyalara etibar etmirlər. Eyni zamanda Azərbaycan diasporu da formalaşıb, dünyanın müxtəlif ölkələrində Azərbaycan haqq səsinin eşidilməsi üçün fəaliyyət göstərirlər.

14 iyulda Bakıda Silahlı Qüvvələrə və Ali Baş Komandana çoxminlik dəstək yürüşü həyata keçirilib. Xalq ordusunun və Ali Baş Komandanının yanında olduğunu, onu dəstəklədiyini ən yüksək səviyyədə göstərib.

Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatla əlaqədar Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aparatına, yerli idarə, şöbə və bölmələrinə könüllü olaraq cəbhə bölgəsinə gedərək döyüşmək və lazımi kömək göstərmək istəyən vətəndaşlarımız tərəfindən çoxsaylı müraciətlər daxil olur.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çağırışına səs verən 55.130-dan çox vətəndaş Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində qeydiyyatdan keçiblər və müraciətlər davam edir.

Azərbaycanda Qadın Sahibkarlığı Assosiasiyasının (AQSİA) üzvləri Prezidentin çağırışına dəstək verib. Assosiasiya sıralarında birləşən yüzlərlə sahibkar xanım orduda xidmət göstərməyə hazır olduqların bildiriblər.

Ölkənin 43 siyasi partiyası birgə, 4 siyasi partiyası isə ayrılıqda bəyanat verərək, erməni təxribatına qarşı mübarizədə Ali Baş Komandanın ətrafında birləşdiyini vurğulayıb.

Qardaş Türkiyə cümhuriyyəti Azərbaycanı tək buraxmadı və təbii ki, Azərbaycana dəstək nümayiş etdirən ilk ölkə qardaş Türkiyə oldu. Ən yüksək səviyyədə Azərbaycanı dəstəklədiyini bildirdi. Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı Azərbaycana qardaş dəstəyi olmaqla yanaşı, həm də düşmənlərə mesaj oldu. O çıxışı zamanı dost və qardaş Azərbaycana qarşı Ermənistan tərəfdən törədilən hücumu şiddətlə qınadığını dilə gətirib: “Bu gərginliyin Ermənistanın düşünülməmiş hücumundan sonra silahlı toqquşmaya çevrilməsindən narahatıq. Son hücum iki ölkə sərhədində ağır silahlarla həyata keçirilib. Bu hadisə Dağlıq Qarabağda deyil, iki dövlət arasındakı sərhəddə və ağır silahlarla törədilib. Bu hadisə hər hansı sərhəd pozuntusu deyil, birbaşa Azərbaycana qarşı məqsədli hücum olduğunu göstərməkdədir”.

Türkiyənin Xarici İşlər Naziri Mövlud Çavuşoğlu bildirib ki, Ermənistan yeni toqquşma meydanı yaratmaqla, diqqəti işğal etdiyi ərazilərdən başqa istiqamətə yönəltmək istəyir. Ermənistanın bu günə kimi münaqişənin siyasi həll yoluna yaxın durmadığını deyən nazir bildirib ki, Ermənistanın etdiyi qəbuledilməzdir: “Ermənistan ağlını başına yığsın, Azərbaycan tək deyil. Biz Türkiyə Cümhuriyyəti və türk milləti olaraq bütün imkanlarımızla Azərbaycanın yanındayıq. Azərbaycanın ərazi bütövlüyünün qorunmasına əlimizdən gələn dəstəyi verəcəyik. Biz demişik ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansı həll yolunu seçəcəksə, biz Azərbaycanın yanında olacağıq. Bu həssas bir cümlədir. Bunu biləkdən dedim”.

Türkiyənin Müdafiə naziri Hulusi Akar Azərbaycan-Ermənistan təmas xəttində davam edən gərginlikdən danışarkən, “İşğalçılığı davam etdirən Ermənistana qarşı Azərbaycan Silahlı Qüvvələrinin yanında olmağa, azərbaycanlı qardaşlarımıza dəstək verməyə davam edəcəyik” ifadələrini işlədib.

Xaricdə yaşayan soydaşlarımız da Prezident ilham Əliyevin yanındadır və onu dəstəkləyir. Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu və Dünya Türk Birliyi təşkilatı, Latviyada yaşayan soydaşlarımız, Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresi, Ukraynadakı Türkiyənin icma nümayəndələri, Belorusda yaşayan Azərbaycanlılar da öz vətənlərinə dəstəklərini göstərib, erməni işğalını lənətləyiblər.

Macarıstanda fəaliyyət göstərən “Qardaşlıq,” Macarıstan-Azərbaycan Cəmiyyəti, Azərbaycan-Macarıstan Gənclər Birliyi və Azərbaycan Evinin birgə təşəbbüskarlığı ilə keçirilən mitinqdə “Erməni təcavüzünü dayandırın!”, “Qarabağ - Azərbaycandır!”, “Ermənistan beynəlxalq hüquqa etinasızlıq göstərir!”, “Ali Baş Komandan, biz sizin əsgərlərinizik!” kimi şüarlar səsləndirilib.

1-1_tovuz - Œ Ł .qxd 21.08.2020 13:48 Page 3



# Tovuz rayon İcra Hakimiyyətində videomüşavirə keçirilmişdir



Nazirlər Kabineti yanında Operativ Qərargahın xüsusi karantin rejiminə nəzarətin gücləndirilməsinə dair 8 avqust 2020-ci il tarixdə keçirilmiş respublika üzrə videomüşavirədə verilən tapşırıqların icrasının təşkili ilə bağlı rayon icra hakimiyyətində inzibati ərazi dairələri üzrə nümayəndələrin iştirakı ilə videomüşavirə keçirilmişdir.



Videomüşavirəni rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov açaraq Baş Nazir Əli Əsədovun sədrliyi ilə keçirilən respublika üzrə videomüşavirədə aparılan müzakirələri və verilən tapşırıqları diqqətə çatdırmış və xüsusi karantin rejimi qaydalarına nəzarətin gücləndirilməsi ilə bağlı qarşıda duran vəzifələrdən danışmışdır.

Qeyd olunmuşdur ki, ölkə ərazisində mövcud olan epidemioloji vəziyyət və xüsusi karantin rejimi qaydalarının tətbiqi dövlət başçısı cənab İlham Əliyevin daim nəzarətindədir. İnfeksiyaya yoluxmaların sayının azalmasına və müəyyən yumşalmaların elan olunmasına baxmayaraq rayon ərazisində sanitariya qaydalarına ciddi əməl olunmalı, bu işə nəzarət gücləndirilməli, xüsusi karantin rejimi qaydaları tam məsuliyyətlə yerinə yetirilməlidir. Qəbul edilmiş qaydalara əməl olunmasına məsuliyyət daşıyan əsas orqanlardan biri də yerli icra hakimiyyətləridir. Bu sahədə fəaliyyət rayonun hüquq mühafizə orqanları ilə qarşılıqlı şəkildə qurulmalıdır. Rəhbər işçilərin iştirakı ilə, eyni zamanda mobil qruplar tərəfindən müntəzəm reydlər keçirilməli, əhali arasında maarifləndirici işlər gücləndirilməli, nöqsanlara yol verənlər haqqında qanunvericilikdə nəzərdə tutulan qaydada tədbirlər görülməlidir. Fərdi qaydada sahibkarlarla söhbət aparılmalı, onların diqqətinə bir daha çatdırılmalıdır ki, sahibkar obyektlərində yoluxmalara görə məsuliyyət tam olaraq onların üzərinə düşür.

Videomüşavirə geniş dialoq şəklində davam etdirilmişdir. İH başçısının Tovuz şəhər, Abulbəyli, Bozalqanlı, Əyyublu, Azaflı, Alakol, Aşağı Quşçu, Düz Qırıqlı, İbrahimhacılı, Yuxarı Öysüzlü, Əsrik Cırdaxan, Əlibəyli, Düz Cırdaxan, Hacıalılı, Ağdam, Çatax, Qəribli, Qaralar, Böyük Qışlaq kənd İƏD üzrə nümayəndələri xüsusi karantin rejimi qaydalarının yerlərdə icrası vəziyyəti ilə bağlı operativ məlumat vermiş, onlara ünvanlanan sualları cavablandırmışlar. Videomüşavirədə ərazilərində yas mərasimlərinin keçirilməsinin qarşısının alınmasında nöqsanlar müşahidə edildiyinə görə Aşağı Quşçu, Alakol, Düz Qırıqlı, İbrahimhacılı kənd icra nümayəndələrinə xəbərdarlıq edilmişdir.

Videomüşavirəni RİH başçısı Məmməd Məmmədov yekunlaşdıraraq xüsusi karnatin rejimi dövründə səlahiyyətləri çərçivəsində üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi ilə bağlı ərazi icra nümayəndələrinə müvafiq tapşırıqlar vermişdir.

*"Tovuz"*



# Xüsusi karantin rejimi qaydalarına riayət olunması vəziyyəti ilə bağlı Tovuz RİH başçısı yanında fəaliyyət göstərən qərargahın iclası keçirilmişdir

Tovuz rayonu ərazisində xüsusi karantin rejimi qaydalarına riayət olunması vəziyyəti ilə bağlı RİH başçısı yanında fəaliyyət göstərən qərargahın iclası keçirilmişdir. RİH başçısının inzibati ərazi dairəsi üzrə nümayəndələri video bağlantı ilə iclasda iştirak etmişlər.

Videomüşavirədə Tovuz RİH başçısı Məmməd Məmmədov çıxış edərək Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargah tərəfindən ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması üçün görülən zəruri tədbirlərdən danışıb.

Qeyd olunmuşdur ki, hazırda ölkəmizdə yeni növ koronavirusun (COVİD-19) yayılması sürətinin azadılması ilə əlaqədar xüsusi karantin rejimi tətbiq olunur. Pandemiya dövrü üçün Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qaydalar müəyyənləşdirilmişdir və bu qaydalar 31 avqust tarixinədək qüvvədə olacaqdır. Pandemiyaya qarşı mübarizə aparılmasının üsulları əsasən özünü sosial təcridetmə, qoruyucu vastələrdən istifadə olunması və gigyena qaydalarına əməl olunması şərtləridir. İnfeksiyanın geniş yayılmasının məhdudlaşdırılması ilə bağlı zəruri şərtlərdən biri də əhali arasında maarifləndirici və izahedici tədbirlərin həyata keçirilməsidir. Bu məqsədlə rayon İcra Hakimiyyəti yanında fəaliyyət göstərən operativ qərargahın yanında 54 mobil qruplar yaradılmışdır. Mobil qrupların tərkibinə ziyalılar, gənclər, könüllülər, hüquq-mühafizə orqanlarının nümayəndələri cəlb olunmuşdur. Ötən müddət ərzində bütün yaşayış məntəqələrində əhali qrupları ilə görüşlər keçirilmiş, lazımi maarifləndirmə işləri aparılmışdır.

Eyni zamanda rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə bilavasitə rəhbər işçilərin qatıldığı qruplar tərəfindən əhalinin kütləvi qaydada yığılması ehtimal olunun yerlərdə reydlər keçirilmiş, xüsusi karantin rejimi qaydalarını pozan vətəndaşlar, sahibkarlar cərimə olunmuş, bəzilərinə xəbərdarlıq edilmişdir. Bu tədbirlər ona hədəflənmişdir ki, insanlar qrup şəkilində bir yerə toplaşmasınlar, tənəffüs yollarının infeksiyadan qorunması üçün maskadan istifadə etsinlər və sosial məsafəni saxlasınlar.

Təəsüflə qeyd olunmalıdır ki, Nazirlər Kabinetinin yanında Operativ Qərargahın müəyyən etdiyi qaydalarda kütləvi tədbirlərin, dəfn mərasimləri istisna olmaqla digər yas mərasimlərinin keçirilməsi qadağan olunmasına baxmayaraq hələ də yerlərdə bu kimi hallara rast gəlinir. Ona görə də ərazi icra nümayəndələri bir daha ərazidə fəaliyyət göstərən ictimai-iaşə müəssisələrinə və istirahət mərkəzlərinə baş çəkməli, sahibkarları müvafiq qaydalarla tanış etməli və xüsusi karantin rejimi qaydalarının pozulmasının məsuliyyətini onlara xatırlatmalıdırlar. Eyni zamanda yaşayış məntəqələrində vəfat edən şəxslərin varisləri ilə dəfn günü görüş keçirilməli və dəfn mərasimləri istisna olmaqla digər yas mərasimlərinin keçirilməsinin qadağan olunması fərdi qaydada onlara bildirilməlidir.

Videomüşavirədə qərargah üzvlərindən RİH başçısının birinci müavini Rəşad Zeynalov, polis şöbəsinin rəisi Şirzad Əsgərov, rayon prokuroru Elçin Qəhrəmanov çıxış edərək xüsusi karantin rejimi qaydalarının tətbiqi ilə bağlı görülən işlər barədə operativ məlumat vermişlər.

Müzakirələr zamanı RİH başçısının Qovlar şəhər, Əyyublu, Böyük Qışlaq, Əsrik Cırdaxan kənd İƏD üzrə nümayəndələri yerlərdə xüsusi karantin rejiminin tətbiqi ilə bağlı görülmüş işlərdən danışmış, yerli icra nümayəndələrinin ünvanlarına tutulan iradlardan qısa zamanda nəticə çıxaracaqlarını bildirmişlər.

Videomüşavirəni RİH başçısı Məmməd Məmmədov yekunlaşdıraraq xüsusi karnatin rejimi dövründə səlahiyyətləri çərçivəsində üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi ilə bağlı qərargah üzvlərinə, polis orqanlarına və ərazi icra nümayəndələrinə müvafiq tapşırıq və tövsiyələr vermişdir.

*"Tovuz"*

# Molla Ayrım kəndində modul tipli məktəb quraşdırılacaqdır

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə əhalinin sosial rifahının yaxşılaşdırılması və təhsilin maddi texniki bazasının möhkəmləndirilməsi istiqamətində tədbirlər davam edir.

Cənab Prezidentin 2020-ci il 8 avqust tarixli Sərəncamına əsasən rayonun dağ kəndi olan Molla Ayrım kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəb quraşdırılacaq. Bununla da rayon ərazisində modul tipli məktəblərin sayı 14-ə çatdırılacaqdır.

Sakinlər ölkəmizdə sosial infrastrukturun yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlərdən məmnundur və onlara göstərilən dövlət qayğısına görə dövlət başçısına minnətdarlıqlarını ifadə edirlər.

*"Tovuz"*

1-1_tovuz - Œ Ł .qxd 21.08.2020 13:48 Page 4



## *Tovuz rayonu:*

# 90 il tərəqqi və inkişaf yolunda

Bu gün Tovuz rayonunun inzibati rayon kimi yaradılmasından 90 il ötür. Tovuz artıq müasir, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl rayondur. Tovuzun qədim tarixi var, lakin inzibati rayon kimi Azərbaycan SSR Mərkəzi icraiyyə komitəsinin 8 avqust 1930-cu il tarixli Qərarı ilə yaradılmışdır.




Çox şərəfli keçmişə malik və babaların hünərinə şahidlik etmiş Tovuz əzəli yurd yerlərimizdəndir. Yaşı 8 min ildən çox olan Göytəpə arxeoloji abidəmiz tariximizin ululuğundan xəbər verir. Beynəlxalq səviyyədə elmi cəhətdən təsdiq olunmuşdur ki, Tovuzdakı bu protoşəhər Qafqazda ən qədim nümunədir.

Tovuz heç vaxt əsarət altına düşməyib, istilaya məruz qalmayıb. İndiki tovuzluların nəsilləri bu torpağın şərəfli qəhrəmanlıq tarixini həmişə yaşadıb, uca tutmuşlar. Burada gənclərin, yeni nəslin vətənpərvərlik tərbiyəsinə həmişə həssaslıqla yanaşılmışdır. Bu il iyul ayının 12-dən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhəddinin Tovuz rayonu istiqamətində törədilən təxribatın qarşısının alınmasında qüdrətli Ordumuzla möhtəşəm birlik nümayiş etdirən tovuzlular bu dəfə də tarixin sınağından alnı açıq-üzü ağ çıxdı və öz ünvanına bir zəfər tarixi yazdı.

Ötən 90 ildə Tovuz rayonu çox sürətli inkişaf yolu keçmişdir. Rayonumuzun sosial-iqtisadi inkişafının zirvəsi məhz Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə və müstəqillik illərinə təsadüf edir.

Ulu öndər Heydər Əliyev dəfələrlə Tovuz rayonunda olmuş, rayonun hərtərəfli inkişafına çox dəyərli töhfələr vermiş, zəhmətkeş insanlara xüsusi qayğı ilə yanaşmışdır. Onun Tovuzlular haqqında dediyi məşhur “Tovuzun gözəl təbiəti, qiymətli sərvəti var, onun ən qiymətli sərvəti əməksevər insanlarıdır” kəlamı bu gün də bizim üçün qürur mənbəyidir.

Son illərdə Tovuz rayonuna 8 dəfə səfər edən cənab Prezident İlham Əliyev rayonun sosial-iqtisadi inkişafı ilə bağlı 26 Sərəncam imzalamış, bir çox təməlqoyma və açılış mərasimlərində iştirak etmişdir. Tovuzlular cənab Prezidentin, həmçinin Azərbacanın Birinci vitse-Prezidenti Mehriban xanım Əliyevanın qayğısını həmişə hiss etmişlər və böyük minnətdarlıq hissi ilə bunu yüksək dəyərləndirirlər.

Bu gün Tovuz rayonu günügündən gözəlləşir, tərəqqiyə qovuşur. Rayonda ardıcıl olaraq yeni-yeni layihələr icra olunur. Geniş miqyaslı tikinti-quruculuq və abadlıq işləri həyata keçirilir. Əhalinin güzaranı durmadan yaxşılaşır.

Tovuzlular cənab İlham Əliyevin həyata keçirdiyi siyasi kursun Azərbaycanı xoşbəxt gələcəyə aparan yeganə yol kimi görürlər və həmişə bu siyasətə sadiqdirlər.

Bütün tovuzluları Tovuzun inzibati rayon kimi yaradılmasının 90 illiyi münasibətilə ürəkdən təbrik edir, hər kəsə yeni-yeni uğurlar və xoşbəxtlik arzulayırıq.

*“Tovuz”*

# Tütün qurutma müəssisəsi fəaliyyətə başlamışdır



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, ölkəmizdə ixracyönümlü və ənənəvi sahələrin dirçəldilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində tütünçülüyün inkişaf etdirilməsi də qarşıya məqsəd qoyulub. Bu sahənin inkişafında Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı” böyük əhəmiyyət kəsb edir. Həmin proqram çərçivəsində Tovuz rayonunda istehsal olunmuş tütün məhsullarının tədarükü, saxlanılması və emalı məqsədilə tütün qurutma müəssisəsinin yaradılması nəzərdə tutulmuşdur. Dövlət proqramının icrası çərçivəsində “Tovuz Aqro Sənaye” MMC-də yaradılmış tütün qurutma müəssisəsi öz fəaliyyətinə başlamışdır.

Əvvəllər rayonda istehsal olunan yaş tütün yarpaqları 250-300 km məsafədə digər rayonlarda olan tütün qəbulu məntəqələrinə təhvil verilirdi. Bu isə yaş tütün məhsulu istehsalçıları üçün iqtisadi cəhətdən səmərəli deyildi. Hazırda Tovuzda tütün qurutma müəssisəsinin yaradılması ilə həmin problemin həlli rayonda və bölgədə tütünçülüyün inkişafı üçün geniş imkanlar yaradıb.

Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov həmin müəssisədə olaraq işlərin gedişi ilə maraqlanmışdır. Bildirilmişdir ki, bu il rayonda tütünçülüklə məşğul olan fermerlər və digər istehsalçıları 50 hektar sahədə tütün əkiblər. Bir neçə gündür ki, tütün yarpağı yığımına başlanılıb. Qısa müddət ərzində 100 tona yaxın yaşıl tütün yarpağı sahələrdən dərilərək birbaşa tütün qurutma məntəqəsinə təhvil verilmişdir. Müəssisədə yaş tütün yarpağının qəbulundan başlamış texnoloji prosesin son məhsulu kimi tütün fermentasiya fabrikinə kipləşdirilmiş halda göndərilən quru yarımfabrikat istehsalı tamamilə müasir texnologiyalar əsasında həyata keçirilir. Bunun üçün tam avtomatlaşdırılmış həmin məntəqəyə 10 ədəd termopilin avadanlığı Serbiya Respublikasından alınıb gətirilmişdir. Hazırda müəssisədə 30 nəfər daimi işlə təmin olunmuşdur.

RİH başçısı kollektiv üzvləri və məhsul istehsalçıları ilə görüşü zamanı bildirmişdir ki, tütünçülüyün inkişafı üçün sahibkarlara daim dövlət tərəfindən lazımi diqqət və qayğı göstərilir və gələcəkdə də bu istiqamətdə ardıcıl tədbirlər görüləcəkdir.

*“Tovuz”*

# Əyyublu kəndində şəhidlərin xatirəsinə guşə yaradılıb

*Tovuz rayonunun Əyyublu kəndindəki abidə kompleksində kənd ictimaiyyətinin təşəbbüsü və rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq xüsusi güşə yaradılmışdır. Guşədə bu il iyul ayının 12-dən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhəddinin Tovuz rayonu istiqamətində törədilən təxribatın qarşısını alarkən qəhrəmancasına həlak olmuş şəhidlərimizin foto şəkilləri əks olunmuşdur. Rayon sakinləri fərdi qaydada güşəni ziyarət edərək şəhidlərimizin ruhuna dualar oxuyur, ehtiramlarını bildirir və Vətən uğrunda canlarından keçən və şəhidlik zirvəsinə yüksələn cəsur vətən övladlarına Allahdan rəhmət diləyirlər.*

*Tovuz döyüşlərində igidlik göstərmiş şəhidlərimizin həyat yolu və qəhrəmanlığı hər bir tovuzlu gənc üçün örnəkdir. Yüksək vətənpərvərlik hissləri ilə guşəyə baş çəkən gənclər müsəlləh əsgər kimi hər an vətənin keşiyində hazırdırlar.*




## SİZƏ QURBAN OLUM, AY TOVUZLULAR

Gözümdü-yanacaq çıraqdı Tovuz,
Sevdalar dünyası-bulaqdı Tovuz,
Müqəddəs məkandı,torpaqdı Tovuz,
Haqqadır haqq yolum,ay tovuzlular,
Sizə qurban olum, ay tovuzlular!

Əbədi yaşayan dastanlarsınız,
Yusiflər, Mərdanlar, Məstanlarsınız.
Qorxu nədir, bilməz aslanlarsınız,
Mənim qızım, oğlum, ay tovuzlular,
Sizə qurban olum,ay tovuzlular!

Naiqlər,Qasımlar,Muradlarsınız,
Daim öndəsiniz,müdəm varsınız.
Səngərdə sınmayan Poladlarsınız,
Vurur sağım-solum,ay tovuzlular,
Sizə qurban olum,ay tovuzlular!

Hər bir övladının Vətən canında,
Lazımsa hər biri keçər canından.
Bakı arxaınızda,Gəncə yanında,
Qatdanmazdı qolum,ay tovuzlular,
Sizə qurban olum,ay tovuzlular!

Qədri-qiyməti yox obalarımın,
Varı-sərvəti çox obalarımın.
Bura məzarıdır babalarımın,
Ululardan ulum,ay tovuzlular,
Sizə qurban olum,ay tovuzlular!

Bir əmrə Göyçədə dayanacağıq,
Zəfər sevincinə boyanacağıq.
Murğuzda yuxudan oyanacağıq,
Mənim dəlim-dolum,ay tovuzlular,
Sizə qurban olum,ay tovuzlular!

Azərbaycan səsi sərhədlər aşsın,
Dünyada vüqarlı adı daşısın.
Bir olaq,birləşək Vətən yaşasın,
"Ya ölüm,ya olum",ay tovuzlular,
Sizə qurban olum,ay tovuzlular!
Sizə qurban olum, ay tovuzlular!

***Xəyal Dağlar,***
***Haçaqaya***

## Tovuz şəhidləri

***(2020-ci ilin iyul ayında Tovuz döyüşlərində şəhid olanlara ithaf edirəm)***

Tovuzum, sipər oldun
Sərhədinə vətənin.
Ey türkün düşmənləri,
Yetər artıq, utanın.
...Ermənilik qızışıb
Generalım hədəfdə.
POLAD canından keçdi,
Vətən üçün hədəf də.
Polkovnikim yenə də
İLQARına düz çıxdı...
Vətən bağrına basdı,
Torpaq əlini sıxdı.
İki mayor bir anda
Fəda oldu vətənə.
Bu igidlərə qıyan,
Lənət olsun atana...
Bir mayorum Qazaxdan
Yuxarı Salahlıdan.
NAMİQ: qana, qan - dedi,
Qorxmadı silahlıdan.
Bir mayor yoldaşı da
Ölümə salam verdi.
ANAR onunla birgə
Belə sındırdı dərdi.
Baş leytenant RƏŞAD da
Ölümü yerə sərdi.
Bax beləcə düşmənin
Ümidlərini qırdı.
Bir əsgər ölümünə
Neçə ürək göynədi.
XƏYYAM şəhid olanda
Yer yerindən oynadı.
Bu döyüşdə Tovuza
Qonşusu dörd can verdi.
Onlar Ağstafanın
Ər oğlu, igid, mərdi.
Bir çavuş ölümüylə
VÜQARımıza döndü.
İndi üç balasına
Sahib Göycəli kəndi.
Gizir YAŞAR səkkiz il,
Gözlədi bala yolu.
Övlad qucaqlamadan
Yanına düşdü qolu.
Övladı doğulmamış
Köçəsgərdən köç etdi.
Onun dəfnindən sonra
Yurdunda qızı bitdi.
İki MAXE əsgər də
Ağstafadan getdi.
Kol Xəlfəlidən NAZİM
Vətən qoynunda yatdı.
Bir də nişanlı ELÇİN
Gülləyə nişan oldu.
Təkcə Həsənsu deyil
Ölkəm pərişan oldu.
Vətənimin taleyi
Tovuzuma yol aldı.
İki tovuzlu igid
Yurduna qurban oldu.
Biri baş əsgər ELŞAD,
Ağdamın fəxri oğlu.
Düşmən bu kənd önündə
İllərdir qolu bağlı.
Tovuzum xilas oldu,
Cəlillimizdə yasdı.
Daha bir İLQARını
Vətən bağrına basdı.

***Gülnar Səma***






# 1441-ci ildə erməni katolikosluğu İrəvan bölgəsinə köçürülənə qədər burada ermənilərə məxsus bir kənd də olmayıb

***XIX əsrin əvvəlində baş vermiş Rusiya işğallarına qədər İrəvan xanlığı əhalisinin mütləq əksəriyyəti Azərbaycan türkləri idi. Qeyd etmək lazımdır ki, erməni katolikosluğu mərkəzinin 1441-ci ildə İrəvan (Çuxursəd) bölgəsinə köçürülməsinə qədər burada ermənilərə məxsus heç bir kənd və yaxud torpaq sahəsi olmayıb.***

***Hətta erməni katolikosluğunun yerləşdiyi Üçkilsə (Valarşabad ) kəndi belə 1443-cü ildən başlayaraq ermənilər tərəfindən müxtəlif vasitələrlə hissəhissə Azərbaycan türklərindən alınmışdı. Azərbaycan dövləti olan İrəvan xanlığını Azərbaycanın dövlət idarəçiliyi tarixində mühüm rol oynamış məşhur Qacarlar adlanan türk sülaləsindən olan xanlar idarə etmişlər.***



Xanlığın bütün idarəçilik sistemi, ictimai, siyasi, mədəni və təsərrüfat həyatı, burada yaşayan əhalinin məişət mədəniyyəti Azərbaycanın minillər boyunca davam etmiş ümumi tarixi inkişaf sisteminin ayrılmaz tərkib hissəsi idi. İrəvan xanlığı öz inkişaf xüsusiyyətlərinə görə həmin dövrdə mövcud olmuş digər Azərbaycan xanlıqlarından heç nə ilə fərqlənmirdi. İrəvan xanlığının ərazisində, tarix boyu, Azərbaycan xalqına məxsus çoxsaylı yaşayış məskənləri - kəndlər, şəhərlər salınmış, minlərlə tarixi abidələr qalalar, məscidlər, minarələr ucaldılmış, karvansaralar, hamamlar inşa olunmuşdu. Bölgədəki bütün yer adları - toponimlər Azərbaycan xalqına məxsus idi.

Bu inkarolunmaz həqiqəti hətta erməni mənbələri də təsdiq edir. Xanlığın ərazisində saysız-hesabsız qədim oğuz-türk qəbiristanları və bu qəbiristanlarda Azərbaycan xalqına məxsus külli miqdarda qoç heykəlləri, qəbirüstü abidələr vardı. Bütün bunlar Azərbaycan xalqının maddi mədəniyyət möhürləri idi… Lakin XIX əsrin əvvəllərində Cənubi Qafqazın tarixində qanlı faciələr dövrü başlandı. Regionu ələ keçirməyə çalışan Rusiya imperiyası Azərbaycan xanlıqlarına qarşı müharibələrə başladı. Çox çəkmədən Cənubi Qafqaz Rusiya imperiyasının Qacarlar İranı və Osmanlı dövlətinə qarşı apardığı qanlı müharibələr meydanına çevrildi.

Osmanlı dövləti və Qacarlar İranı ilə sərhəddə yerləşən İrəvan xanlığının ələ keçirilməsi Rusiya imperiyasının işğalçılıq planlarının mühüm tərkib hissəsi idi. 1804-1813-cü illərdə Azərbaycan torpaqlarının işğalı uğrunda gedən Birinci Rusiya - İran müharibəsi zamanı İrəvan xanlığı iki dəfə (2 iyul-3 sentyabr 1804-cü il; 3 oktyabr-30 noyabr 1808-ci il) Rusiya qoşunlarının güclü hücumlarına məruz qaldı. Lakin İrəvan xanlığı Rusiyaya təslim olmadı və öz müstəqilliyini qoruyub saxlaya bildi.

Xanlığın əhalisi müdrik və cəsur dövlət xadimləri olan Məhəmməd Hüseyn xan Qacarın (1784-1805) və Hüseynqulu xan Qacarın (1806-1827) başçılığı ilə doğma vətəninin müdafiəsinə qalxaraq çar qoşunlarına qəhrəmanlıqla müqavimət göstərdi. Böyük itkilər verən Rusiya imperiyasının hakim dairələri İrəvan xanlığını ələ keçirmək üçün şirnikləndirici vasitələrə əl atdı. Rusiyanın Cənubi Qafqazdakı hərbi qüvvələrinin baş komandanı general Qudoviç İrəvan sərdarının (Hüseynqulu xan Qacar - red.) qardaşı Həsən xan Qacara qalanı könüllü təslim edəcəyi halda onu sərbəst buraxaraq, İrəvan qalası və şəhəri istisna olmaqla, bütün xanlığın hakimi təyin olunacağına Rusiya imperatoru adından vəd verdi. Həsən xan Qacar Rusiya imperatoru adından verilən bu təklifi rədd etdi.

Çar Rusiyası Azərbaycan torpaqlarının işğalında ermənilərin köməyindən, erməni xəyanətindən dövlət səviyyəsində istifadə edirdi. Məsələn, çarın həmin dövrdə verilmiş bir fərmanına bununla bağlı ayrıca bənd daxil edilmişdi: "…Hər cür nəvazişlə ermənilərı öz tərəfinizə çəkməyi xüsusi olaraq sizin ixtiyarınıza buraxıram".

Bütün bunlara baxmayaraq, Birinci Rusiya-İran müharibəsi zamanı Rusiya imperiyası İrəvan və Naxçıvan xanlıqlarını işğal edə bilmədi. Hər iki xanlığın yerli əhalisi olan Azərbaycan vətənpərvərləri doğma yurdun azadlığı uğrunda işğalçılara və onlara kömək edən ermənilərə qarşı qəhrəmanlıq mübarizəsi aparıb və qələbə çaldılar. İrəvan xanlığını işğal etmək niyyətindən əl çəkməyən I Nikolay İrəvan və Sərdarabad qalalarını ələ keçirməyin hərbi - strateji əhəmiyyətini nəzərə alır, bunu tez-tez general Yermolova xatırladırdı. Rusiya imperatoru 1826-cı il oktyabrın 21- də Yermolova yazırdı: "Əgər İrəvanı ya silah gücünə, ya İrəvan Sərdarını pulla ələ almaq yolu ilə, ya da onunla gizli münasibətlər qurmaqla ələ keçirmək mümkündürsə, bu imkanı əldən verməyin".

İkinci Rusiya - İran müharibəsi (1826-1828) zamanı İrəvan xanlığının işğalına xüsusi önəm verən çar I Nikolay (1825-1855) Yermolova göndərdiyi 1826- cı il 1 avqust tarixli fərmanında işğalçı generala xüsusi olaraq tapşırırdı: Təcili olaraq İrəvan Sərdarı üzərinə yürüş edin. Tezliklə sizdən belə cavab gözləyirəm: "Allahın köməkliyi ilə Sərdar daha yoxdur və İrəvan vilayəti tamamilə tutulub". Siz və 15 min nəfərlik rus ordusu qələbə qazanmaq üçün kifayətdir.

Azərbaycan vətənpərvərlərinə başçılıq edən İrəvan sərdarı Hüseynqulu xan Qacar, qardaşı "Aslanlar başı" titulunu daşıyan Həsən xan və onun nəvəsi Fətəli xan Qacar 1827-ci ildə Rusiya işğalçılarına qarşı İrəvanı (27 aprel 23 iyun; 24 sentyabr 1 oktyabr) və Sərdarabad qalasını (16-17 aprel; 14-20 sentyabr) dörd dəfə qəhrəmancasına müdafiə etdi. Çar generalı Benkendorfun Sərdarabad qalasını təslim etmək təbbini rədd edən Həsən xanın nəvəsi Fətəli xan Qacar işğalçılara sərt və birmənalı cavab verdi: "Qalanı təslim etməkdənsə onun dağıntıları altında ölməyim yaxşıdır".

İrəvan qalasının qəhrəman müdafiəçisi Həsən xan Qacar isə son anda qalanı düşmənə təslim etməkdənsə partlatmaq məqsədilə barıt qülləsinə yanan fitil qoymuşdu. Lakin poruçik Lemyakin bunu vaxtında görmüş və əli ilə yanan fitili götürmüşdü. Lakin xəyanət öz işini gördü. Ermənilər İrəvan qalasını mühasirədə saxlayan Paskeviçlə əlaqəyə girdilər və azərbaycanlıların qalanın hansı hissəsində yerləşdikləri top atəşlərini hara istiqamətləndirmək lazım olduğu barədə işğalçılara məlumat verdilər.

Erməni xəyanətindən istifadə edərək İrəvan qalasını ələ keçirən və xanlığı işğal edən rus qoşunlarının baş komandanı Paskeviç bu "qələbəyə görə" qraf titulu, 3 2-ci dərəcəli Georgi ordeni, 1 milyon rubl məbləğində pul mükafatı və İrəvan qalasının ələ keçirilməsinə görə "Erivanski" titulu aldı. 4 İrəvan qalasının alınması Sankt-Peterburqda bayram edildi və bu münasibətlə xüsusi rəsmi keçid düzənləndi. Bundan əlavə, İrəvan qalasının alınması münasibətilə xüsusi medallar təsis olundu. İşğalçı Rusiya qoşunlarının İrəvanda törəldikləri dağıntılar və şəhərə vurduqları zərərlə bağlı V.Potto bu hadisənin canlı şahidinin dediklərini olduğu kimi qələmə alaraq yazırdı: "Qalanın cənub-şərq küncünə çatarkən divar və bürclərin dağıntısı məni heyrətə saldı. Mənə elə gəlir ki, rus mühasirə artilleriyasının dörd gündə etdiyini çərxi-fələk dörd əsrdə belə edə bilməzdi"…

***Babək Cəfərov***

***"İrəvan xanlığı (Bakı, 2010)" kitabından***

1-1_tovuz - Œ Ł .qxd 21.08.2020 13:48 Page 7



# "Tovuz" Xeyriyyə Cəmiyyətinin Ağsaqqallar Şurası və İdarə Heyətinin üzvlərinin Bakıda və respublikamızın digər şəhər və rayonlarında, xarici ölkələrdə yaşayan minlərlə tovuzlulara Müraciəti

**Hörmətli eloğlularımız, elqızlarımız!**

Bildiyiniz kimi iyul ayının 12-də günorta saatlarından başlayaraq mənfur ermənilər ağır artilleriyadan, minamyotlardan və digər silahlardan istifadə edərək atəşkəs rejimini pozaraq rayonumuzun sərhəd kəndlərinə hücuma keçməyə cəhd göstərmişlər. Rayonumuzda yerləşən N caylı hərbi hissənin şəxsi heyəti bir neçə saat davam edən döyüşlərdə düşmənin həmlələrimi qəhrəmanlıqla dəf edərək quduz erməniləri geri oturtdublar. Düşmənin 7-si zabit olmaqla 31-dən artıq canlı qüvvəsi məğrur döyüşçülərimiz tərəfindən məhv edilmişdir. Azərbaycan əsgəri 2016-cı ilin aprelində olduğu kimi bir daha dünyanın ən mənfur xalqının ordusuna öz gücünü göstərdi.

Nə edəsən ki, müharibənin öz qanunları var. Bu ağır döyüşlərdə ordumuzdan 3 şəhid oldu, 5 əsgərimiz yaralandı.

Ağstafa rayonu Yuxarı Göycəli kənd sakini, 1987-ci il təvəllüdlü, çavuş Sadıqov Vüqar Lətif oğlu, Tovuz rayonu Ağdam kənd sakini, 1996-cı il təvəllüdlü baş əsgər Məmmədov Elşad Dönməz oğlu, İsmayıllı rayonu Balik kənd sakini, 2002-ci il təvəllüdlü, əsgər Daşdəmirov Xəyyam Məhəmməd oğlu qəhrəmancasına döyüşərək şəhid oldular.

İyulun 13-dən 14-nə döyüş zamanı müdafiənin ön xəttində olan general-mayor Həşimov Polad İsrayıl oğlu qəhrəmancasına şəhid olub. Düşmən hücumunun qarşısını alarkən döyüşdə Azərbaycan Ordusunun aşağıda adları çəkilən hərbi qulluqçuları da şəhid olublar:

- polkovnik Mirzəyev İlqar Anzor oğlu;
- mayor Əhmədov Namiq Hajan oğlu;
- mayor Novruzov Anar Gülverdi oğlu;
- gizir Zeynallı İlqar Ayaz oğlu;
- gizir Babayev Yaşar Vasif oğlu;
- müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mustafazadə Elçin Arif oğlu.

Yüksək rütbəli zabitlərin ön cəbhədə qəhrəmancasına həlak olması onu göstərir ki, həmin zabitlər əsgərlərin arxasında deyil, onlarla çiyin-çiyinə od-alov içərisindədirlər. Belə generalları, belə zabitləri, belə əsgərləri olan ordu həmişə qalib gələcəkdir.

Vətən uğrunda qəhrəmancasına həlak olan bütün şəhidlərimizin məzarları önündə baş əyirik, omlara Ulu Tanrıdan rəhmət diləyirik.

"Tovuz" Xeyriyyə Cəmiyyətinin 30 illik fəaliyyəti dövründə rəhbərliyin, üzvlərinin əksəriyyətinin Bakıda yaşamasına baxmayaraq onların qəlbi həmişə Tovuzla döyünür və həmişə də döyünəcəkdir.

İyul ayının 12-də axşam saatlarında rayonda əhalinin əliyalın sərhəd kəndlərinə axışması, onların müvafiq orqanlardan silah tələb edərək düşmənlə mühəribəyə girməsini tələb edən, yaşından asılı olmayaraq tovuzluları sosial şəbəkələrdə cəmiyyətimizin hər bir üzvünün ürəyi dağa dönürdü. Qısa bir zamanda 12 iyul gecə ikən sosial şəbəkələrdə Türkiyədən, Təbrizdən, Bakıdan böyük dəstək gördük.

2016-cı ilin aprel döyüşləri və 12-14 iyul Tovuz döyüşləri bir daha onu sübut etdi ki, Azərbaycan ordusu nəinki Dağliq Qarabağı və işqalda qalan dəgər torpaqlarımızı azad etməyi, hətta Qərbi Azərbaycanda olan tarixi torpaqlarımızı - Göyçəni, Zəngibasara, İrəvanı, Zəngəzuru və digər torpaqlarımızı azad etməyə qadirdir. Biz buna tam inanırıq. Biz ordumuza tam güvənirik

Ümid edirik ki, əgər ATƏT-in Minsk qrupunun fəaliyyəti çərçəvəsində sülh danışıqları bir nəticə verməzsə, Azərbaycan öz torpaqlarını nə yolla olur olsun, ərazi bütövlüyünü bərpa etmək hüququnu özündə saxlayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandani cənab İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu düşməni işqal olunmuş Azərbaycan ərazilərindən it kimi məhv edərək öz ərazi bütövlüyünü bərpa edəcəkdir.

Biz buna tam əminik. Biz ordumuzla qürür duyuruq.

**Əziz Tovuzlular!**

Bu çətin, eyni zamanda qürürlu günlərdə sizləri, harada yaşamağımızdan asılı olmayaraq sizi kənarda qalmamağı, ordumuza və rayonda yaşayan həmyerlilərimizə mənəvi dayaq durmağa çağırırıq.

Qələbə bizimlədir, əziz Tovuzlular!

***"Tovuz" Xeyriyyə Cəmiyyətinin Ağsaqqallar Şurası və İdarə Heyətinin üzvləri***



## Ramiz Qusarcaylı

### Yeni...

***(Poemadan bir parça)***

Yerin daş dilləri,
çiçək dilləri,
Buludda uçurdu, suda daşırdı.
Enib göy üzündən səs şəkilləri
Yerdə insan-insan məskunlaşırdı.

Səs-səs,nəfəs-nəfəs gəlirdü insan,
Can-can,həvəs-həvəs gəlirdi insan,
Daş-daş,qəfəs-qəfəs gəlirdü insan,
Məskən yaradırdı özünə insan,
Dönürdü mağara, kaha daşına.
Bölünə-bölünə gəlirdi insan
Dünya bölünürdü adam başına,
Silkinib çıxırdı tənhalığından
Düşürdü...
ilk icma quruluşuna...

Mağara-mağara gəlirdi insan,
Bağıra-bağıra gəlirdi insan,
Qarala-qarala gəlirdi insan,-
Ağara-ağara gəlirdi insan...
Gəlirdi əlində daş alətləri,
Gəlirdi əlində tunc alətləri,
Dəmir alətləri,-
gəlirdi insan...

Ocaq isidirdi hər təzə yurdu,
Küləklər səsini ərzə yayırdı,
Qadınlar ocaqda od qoruyurdu.
Kişilər çöllərdə ov ovlayırdı
Kahalar dadırdı ilk istiləri,
Buludlur udurdu ilk tüstüləri...

Əmək alətləri,
daş çapacaqlar,
Sümük alətləri,
baş çapacaqlar.
İlk ocaq yerləri, çaxmaq daşları,
İlk ov alətləri,toxmaq başları.

Ağac gövdələri sala dönürdü,
Dən daşı,daş toxa,oraq olurdu.
Dəmir parçaları nala dönürdü,
Dəbilqə olurdu,yaraq olurdu.
Çiyində gəzirdi qorxunc silahlar,
Arada-bərədə ov ovlanırdı.
Hər gün təzə yollar, təzə günahlar,
İnsan əməlinə girovlanırdı.

Lif ipək olurdu toxuculuğa,
Torpaq şumlanırdı, əkinləşirdi.
Gil saxsı olurdu dulusçuluğa,
İnsan torpağına sakinləşirdi...

Ağıl işləyirdi, iş alışırdı,
İnsan dəstə-dəstə tayfalaşırdı,
İnsan tayfa-tayfa qonşulaşırdı,
Sonra qonşu-qonşu qarşılaşırdı.

Əkinçi tayfalar,maldar tayfalar
Bilirdi torpağın,daşın dilini,
Bilirdi ağacın quşun dilini,
Torpağın dilindən, daşın dilindən,
Ağacın dilindən, quşun dilindən,
Səsinə bənzəyən dil yaradırdı,
Gözünə bənzəyən dil yaradırdı,
Yerinə bənzəyən dil yaradırdı
Özünə bənzəyən dil yaradırdı,

Bir-bir yaranırdı dil birlikləri,
Dil ittifaqları dəbə minirdi.
Birləşə-birləşə dövrün ikləri
Təbəqə-təbəqə möhkəmlənirdi.

Tayfa birlikləri, iş birlikləri
Üz-üzə gəlirdi hər işə görə.
İlk tayfa ərazi çəkişmələri
Başlanırdı ota,örüşə görə...

Bir tayfa başında kahin dururdu,
Bir tayfa başında hakim dururdu,
Tayfalar içində ağsaqqalların
Variydi məclisi,müzakirəsi.
Bütün məclislərin qərarlarında
Ümdəydi kahinin, hakimin səsi.

Tayfalar keçirdi iş birliyinə,
Yaranırdı tayfa hakimiyyəti.
Keçirdi mərkəzin tabeliyinə
Xırda hakimlərin səlahiyyəti.

Tayfalar birləşib ölkələşirdi,
Tayfalar təzədən formalaşırdı.
Hər kəs tayfa-tayfa özgələşirdi,
Hər yer ölkə-ölkə doğmalaşırdı.

O zaman türkdilli tayfaların da,
Öz boyu varıydı,öz duruşları.
Zaman dolanırdı öz axarında
Yaranırdı dövlət quruluşları.

Sərhəd çəkilirdi quruda, suda,
Dövlət yaranırdı aranda,dağda.
Zəncanda,Xəzərdə,Qarqarda,Suda,
Qədim Urmiyada, Mil Qarabağda.

Varıydı Şumerlə əlaqələri,
Mal mübadiləsi,inşaat işi.
Qanuna minirdi ilk bəlgələri
Ərazi formulu,islahat işi.

Şumer,-
Altı min il eradan qabaq,
Tarixdə ən qədim sivilizasiya.
Qədim mədəniyyət, qədim od-
ocaq,
İkiçayarası,-
Mesopotamiya.

Gəl gəzək
Akkadı, Babilistanı,
Daş cizgilərində, gil yazılarda.
Yaşanır tarixin Şumer dastanı
Basma qəliblərdə,mil yazılarda.

Şumerin tarixi dastanlarının
Daş üstü,gil üstü yazılarında
İlk xalq adlarıydı,-
azər,turukku,
Zəngi,böri,qarqar,
bars,subar-su...

Varıydı hər xalqın yürdu,ölkəsi,
Üçündən ikisi türk ölkəsiydi.
Şumerin bir qolu
türk sülaləsi,
Dili də türk dili,-
azər səsiydi.

Antik ədəbiyyat, daş kitabələr,
"Avesta" ,
"Bibliya",-
mühüm mənbələr.
"Gedd xronikası",
"Yerin təsviri",
Qobustan tarixin baş rəsm yeri...

Azıx,
Qazma,
Qala,
Daşsalahlı,Zar,
Buzeyir,
Qaraca,
Damcılı,Tağlar...

Turukku,Lullubi,Kuti,Hurrilər,
Subar,Kassit,Kaspi,Kadusi,Gərgər
,-
Hər biri azəri,türk birlikləri
Öndə dövlətçilik öhdəlikləri...

Döyüşə-döyüşə gəlirdi Turan,
Ayrı bir eradır türk yürüşləri.
Çıxırdı tarixin sınaqlarından
Şöhrət gətirirdi ilk yürüşləri.

Yolu aydın idi hər bir dövlətin
Cəngində bir işıq,hürr bəsləyirdi.
Məclislər seçirdi hakimiyyəti
Şahlar bir-birinı əvəzləyirdi.

Turukku,-
tarixdə türkün ilk adı,
Aratta,-
türkün ilk dövləti idi.
Dövlət,dövlətçilik qoşa qanadı
Özgürlük müqəddəs sərvəti idi.

Uduzdu Akkadın hökmdarına
Padşahlar padşahı Lullun dövləti.
Akkad Lullubini işğal eylədi,
Akkadı süquta yetirdi Kuti.

Kuti də,-
dövrün dağ əjdahaları,
Uğradı daxili çəkişmələrə.
Doğma sandıqları yad qafaları
Qalxıb məmləkəti böldü min yerə.
Bürüdü ölkəni iğtişaş, üsyan,
Vəzifə uğrunda mübarizələr,
Dağıdıb ölkəni qoydular viran,
Getdi dövlətçilik,
ilkin dəyərlər...
Parçalandı xırda vilayətlərə,
Yem oldu yadelli məmləkətlərə...

Səni Kuti-Kuti uduzdum,Vətən,
Turukku-Turukku uduzdum səni.
Səni Kaspi-Kaspi uduzdum,Vətən,
Lullubi-Lullubi uduzdum səni...

# “Prezident sağ olsun, bu istidə əziyyətimizi çəkdilər”

## (Əyyubludan reportaj)

…Bu kəndin yolları bərbad, dağınıq vəziyyətdə idi. Sakinlər yay-qış zülm çəkirdilər, yaşlılar və məktəblilər min bir əziyyətə qatlaşırdılar.

Kənd əhli ümidini üzmüşdü ki, onlar heç zaman hamar, asfalt yol görməyəcəklər. Söhbət Əyyublu kəndindən gedir. Əyyublunun küçələri çala-çuxur, keçilməz idi. Amma o günlər geridə qaldı.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) tərəfindən 17 km olan Əyyublu kəndinin yolları yenidən qurulub. Reportyor.info olaraq kənddən reportaj hazırlayarkən görülən işlərlə maraqlandıq, Əyyublu camaatının fikirlərini öyrəndik.

Əvvəla, Tovuzda şəhər və 4 kəndi əhatə edən ümumi uzunluğu 36 km olan avtomobil yolları əsaslı şəkildə yenidən qurulub. Onlardan biri də bərbad vəziyyətdə olmuş 17 kilometrlik Əyyublu kəndinin yollarıdır.

Artıq kəndin yolları asfaltlanıb, gediş-gəliş rahatlaşıb. Ölkədə pandemiyanın tüğyan etməsinə və virusa yoluxmaların sürətlə artmasına, çətin şəraitə baxmayaraq, icraçılar və fəhlələr fədakarlıq nümayiş etdiriblər, Əyyublu camaatını bərbad yollardan xilas ediblər.

Kənd sakinləri bizimlə söhbətində dedilər ki, Əyyublu böyük bir əziyyətdən qurtulub. Sakinlərin sözlərinə görə, pandemiya dövründə belə bir müqəddəs işin görülməsində əməyi olan hər kəs savab qazandı:

“Bizim dinimizdə deyilir ki, əl tutmaq Əlidən qalıb. Bizə də əl tutdular, kömək elədilər, kəndimizə gözəl asfalt çəkdilər.

Dövlətimizin başçısı İlham Əliyev başdan olmaqla, bu işləri həyata keçirən Saleh Məmmədova, yerli idarənin işçilərinə, böyükdən kiçiyə, fəhləsinə qədər zəhməti olan hamıya təşəkkür edirik.

Pandemiya vaxtında bizə yol çəkdilər, canımızı əzab-əziyyətdən qurtardılar, var olsunlar. Təsəvvür eləməzdik ki, kənd yerində belə yol çəkilsin”.

Əyyublu camaatı danışır ki, yeni asfalt örtüyü möhtəşəmdir, rahatdır, sürücülərin işi xeyli dərəcədə asanlaşıb:

“Kəndin yollarında maşınlar tez-tez dağılırdı, kələ-kötürə düşürdü. Sağ olsunlar, bu istidə əziyyətimizi çəkdilər, təzə asfalt saldılar.

Biz dövlətimizə, prezidentimizə, Mehriban xanıma, cənab İlham Əliyevin etimad göstərdiyi Saleh Məmmədova, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinə, bütün kollektivə dərindən minnətdarıq.

Kimin əziyyəti olubsa, Allah canını sağ eləsin. Qoy həmişə dövlətimiz var olsun. Biz hər bu yola çıxanda sevinirik. Koronavirusun belə vaxtında böyük fədakarlıq etdilər”.



Əyyublu sakinləri bildirirlər ki, xüsusi karantin rejimi və pandemiya dövrü olsa da, bu çətin zamanda prezident İlham Əliyev insanların təkcə maddi, sosial rifahını deyil, yol və digər problemlərini də düşünür, həll edir.

Qeyd edək ki, AAYDA tərəfindən xüsusi karantin rejiminin tələblərinə uyğun hərəkət edilərək, Əyyubluda yolların asfaltlanması yerinə yetirilib.

Ümumiyyətlə, prezidentin dövlət qurumları qarşısında qoyduğu tapşırıqlar icra edilir, insanların problemləri həllini tapır.

*Arifə Əliyeva*

# Xüsusi karantin rejimi qaydalarının təmin olunması ilə bağlı reydlər davam etdirilir

***Koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə əhalinin sağlamlığının qorunması, infeksiyanın yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə uyğun olaraq Tovuz Rayon İcra Hakimiyyəti yanında fəaliyyət göstərən mobil qruplar tərəfindən rayon ərazisində növbəti dəfə reydlər keçirilmişdir.***

Reydlərdə rayon sakinlərinə, rayon ərazisində fəaliyyət göstərən sahibkarlara tibbi maskadan istifadənin və sosial məsafənin saxlanılmasının vacibliyi bir daha çatdırılıb, Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlara riayət etmələri tövsiyə olunub, onlarla maarifləndirici söhbətlər aparılıb.

Reydlər zamanı vətəndaşlar ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində dövlət tərəfindən görülən işləri yüksək qiymətləndiriblər.

Səhvə 3-də: Xüsusi karantin rejimi qaydalarına riayət olunması vəziyyəti ilə bağlı Tovuz RİH başçısı yanında fəaliyyət göstərən qərargahın iclası keçirilmişdir

Tovuz rayonu ərazisində xüsusi karantin rejimi qaydalarına riayət olunması vəziyyəti ilə bağlı RİH başçısı yanında fəaliyyət göstərən qərargahın iclası keçirilmişdir. RİH başçısının inzibati ərazi dairəsi üzrə nümayəndələri video bağlantı ilə iclasda iştirak etmişlər.

Videomüşavirədə Tovuz RİH başçısı Məmməd Məmmədov çıxış edərək Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargah tərəfindən ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması üçün görülən zəruri tədbirlərdən danışıb.

Qeyd olunmuşdur ki, hazırda ölkəmizdə yeni növ koronavirusun (COVİD-19) yayılması sürətinin azadılması ilə əlaqədar xüsusi karantin rejimi tətbiq olunur. Pandemiya dövrü üçün Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qaydalar müəyyənləşdirilmişdir və bu qaydalar 31 avqust tarixinədək qüvvədə olacaqdır. Pandemiyaya qarşı mübarizə aparılmasının üsulları əsasən özünü sosial təcridetmə, qoruyucu vastələrdən istifadə olunması və gigyena qaydalarına əməl olunması şərtləridir. İnfeksiyanın geniş yayılmasının məhdudlaşdırılması ilə bağlı zəruri şərtlərdən biri də əhali arasında maarifləndirici və izahedici tədbirlərin həyata keçirilməsidir. Bu məqsədlə rayon İcra Hakimiyyəti yanında fəaliyyət göstərən operativ qərargahın yanında 54 mobil qruplar yaradılmışdır. Mobil qrupların tərkibinə ziyalılar, gənclər, könüllülər, hüquq-mühafizə orqanlarının nümayəndələri cəlb olunmuşdur. Ötən müddət ərzində bütün yaşayış məntəqələrində əhali qrupları ilə görüşlər keçirilmiş, lazımi maarifləndirmə işləri aparılmışdır.

Eyni zamanda rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə bilavasitə rəhbər işçilərin qatıldığı qruplar tərəfindən əhalinin kütləvi qaydada yığılması ehtimal olunun yerlərdə reydlər keçirilmiş, xüsusi karantin rejimi qaydalarını pozan vətəndaşlar, sahibkarlar cərimə olunmuş, bəzilərinə xəbərdarlıq edilmişdir. Bu tədbirlər ona hədəflənmişdir ki, insanlar qrup şəkilində bir yerə toplaşmasınlar, tənəffüs yollarının infeksiyadan qorunması üçün maskadan istifadə etsinlər və sosial məsafəni saxlasınlar.

Təəsüflə qeyd olunmalıdır ki, Nazirlər Kabinetinin yanında Operativ Qərargahın müəyyən etdiyi qaydalarda kütləvi tədbirlərin, dəfn mərasimləri istisna olmaqla digər yas mərasimlərinin keçirilməsi qadağan olunmasına baxmayaraq hələ də yerlərdə bu kimi hallara rast gəlinir. Ona görə də ərazi icra nümayəndələri bir daha ərazidə fəaliyyət göstərən ictimai-iaşə müəssisələrinə və istirahət mərkəzlərinə baş çəkməli, sahibkarları müvafiq qaydalarla tanış etməli və xüsusi karantin rejimi qaydalarının pozulmasının məsuliyyətini onlara xatırlatmalıdırlar. Eyni zamanda yaşayış məntəqələrində vəfat edən şəxslərin varisləri ilə dəfn günü görüş keçirilməli və dəfn mərasimləri istisna olmaqla digər yas mərasimlərinin keçirilməsinin qadağan olunması fərdi qaydada onlara bildirilməlidir.

Videomüşavirədə qərargah üzvlərindən RİH başçısının birinci müavini Rəşad Zeynalov, polis şöbəsinin rəisi Şirzad Əsgərov, rayon prokuroru Elçin Qəhrəmanov çıxış edərək xüsusi karantin rejimi qaydalarının tətbiqi ilə bağlı görülən işlər barədə operativ məlumat vermişlər.

Müzakirələr zamanı RİH başçısının Qovlar şəhər, Əyyublu, Böyük Qışlaq, Əsrik Cırdaxan kənd İƏD üzrə nümayəndələri yerlərdə xüsusi karantin rejiminin tətbiqi ilə bağlı görülmüş işlərdən danışmış, yerli icra nümayəndələrinin ünvanlarına tutulan iradlardan qısa zamanda nəticə çıxaracaqlarını bildirmişlər.

Videomüşavirəni RİH başçısı Məmməd Məmmədov yekunlaşdıraraq xüsusi karnatin rejimi dövründə səlahiyyətləri çərçivəsində üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi ilə bağlı qərargah üzvlərinə, polis orqanlarına və ərazi icra nümayəndələrinə müvafiq tapşırıq və tövsiyələr vermişdir.

*“Tovuz”*

BAŞ REDAKTOR
Çingiz Qəribli

**Ünvanımız:**
*Tovuz şəhəri, Şəhriyar küçəsi, 3,*
*Telefon: (022)315-35-23*
*tovuz.1929@mail.ru*

*Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlara və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və “Mətbuat firması” mətbəəsində çap olunmuşdur.*
*Sifariş.871 Tiraj: 1500.*